**UOT: 781.**

**Ceyran Sərxanbəyova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: serxanbeyova@gmail.com**

# ÜZEYİR HACIBƏYLİNİN MUSİQİ TƏNQİDİ FƏALİYYƏTİ

Dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin bütün çoxşaxəli və məhsuldar yaradıcılığı hər zaman musiqişünaslar tərəfindən tədqiq edilmişdir. Lakin onun musiqi tənqidi fəaliyyəti hələ də layiqincə işlənilməmişdir. Bu baxımdan mövzunun hər tərəfli şəkildə tədqiqinə ehtiyac duyulur.

Üzeyir bəy Hacıbəylinin tənqidi, publisistik yazılarının başlıca meyarları, estetik prinsipləri və onun hələ də gün üzünə çıxarılmamış tənqidi məqalələrinin, publisistik yazılarının tapılması və təhlil edilib araşdırılması Azərbaycan musiqişünaslarının aktual vəzifələrdəndir.

Üzeyir Hacıbəylinin musiqi tənqidi fəaliyyətinin tədqiqi elmi-nəzəri, bədii -estetik və ictimai-mədəni zəminə əsaslanır. Bu baxımdan böyük musiqişünasın sırf musiqi tənqidi fikirlərini əks etdirən məqalə və çıxışlarından başqa fəaliyyətinin nəzəri və metodoloji bazasına da imkan daxilində diqqət yetiriləcək və tədqiqatın nəticələrinin yeni və faydalı olmasına müəyyən səy göstəriləcəkdir.

“Molla Nəsrəddin” jurnalı, eləcə də “Həyat”, “Həqiqət”, “İrşad”, “Tərəqqi” və s. qəzetlərdən başlayan tənqidi fəaliyyət bəstəkarın bütün həyatı boyu ciddi şəkildə davam etdirilmişdir. Musiqi tənqidi fəaliyyəti xalqın milli-mənəvi dəyərlərinə sahib çıxmaq, onları öyrənmək və daim inkişaf etdirmək kimi ali məqsədlərə xidmət etmişdir.

Tədqiq edəcəyimiz mövzunun aktuallığı ən azından iki cəhətlə izah oluna bilər:

1. Böyük təfəkkür sahibi Ü.Hacıbəylinin musiqişünaslıq irsində tənqidi yazılarını aşkar edib imkan daxilində öyrənmək;

2. Azərbaycan musiqi tənqidinin dirçəldilməsi və daha da inkişaf etdirilməsinə çalışmaq.

Mövzu musiqişünaslıq fikrinin, xüsusilə də musiqi tənqidinin hazırkı vəziyyəti nəzərə alınaraq işlənilməlidir. Hazırkı məruzədə isə daha konkret

məqsədlər irəli sürülür.

Mövzunu öyrənmək məqsədilə böyük bəstəkar və musiqişünasın tənqidi-publisistik fəaliyyətinin yalnız bir qismi nəzərdən keçirilməli və müəyyən prinsiplər əsasında qruplaşdırılaraq təhlil edilməlidir. Məsələn, a) Ü.Hacıbəylinin irsində bəstəkarların yaradıcılıq portretləri; b) ayrı-ayrı musiqi və estetika məsələlərinin şərhi; c) Azərbaycan musiqi həyatının işıqlandırılması və s.

**Tezisin redaksiyaya daxil olma tarixi: 10. 01. 2022**

**Tezisi çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**